**Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyası dekabrın 16-da Biləsuvar Rayon İcra Hakimiyyəti və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Biləsuvar Rayon Heydər Əliyev Mərkəzində "44 gün - Tarixi zəfər" adlı kitabın III və IV cildlərinin təqdimatını keçirdi.**

# "44 gün - Tarixi zəfər"in III və IV cildlərinin Biləsuvarda təqdimatı keçirildi...

***Nəzakət Məmmədova:** "Bu kitab hazırda da tarixi bir hadisə kimi səciyyələnir və insanın tarixləşən həyatını özündə ehtiva edir"*













Təqdimat mərasimini şair Hikmət Məlikzadə açdıqdan sonra dövlət himnimiz səsləndi, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra Biləsuvar İcra hakimiyyətinin başçısı Faiq Qürbətov çıxış edərək, şəhidlərimizin qəhrəmanlığından danışdı, bildirdi ki, bütün şəhidlərin xatirələri əzizdir. İcra başçısı qeyd etdi ki, şəhidlər haqqında kitablar yazılır, filmlər çəkilir, bu baxımdan Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi nəşrlər çox qiymətlidir.

Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova çıxışında rəhbərlik etdiyi redaksiyanın yaranması tarixindən danışdı. "Hörmətli tədbir iştirakçıları, ilk öncə Sizi salamlayır, bu tədbiri təşkil etdiyinə görə Biləsuvar Rayon İcra Hakimiyyəti başçısı cənab Faiq Qurbanova və Şirvan Salyan Regional Mədəniyyət İdarəsinə öz təşəkkürümüzü bildiririk.

Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və onun xeyir-duası ilə fəaliyyətə başlamış Respublika Xatirə Kitabı Redaksiyası müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik tarixi salnamədir. Bu kitab hazırda da tarixi bir hadisə kimi səciyyələnir və insanın tarixləşən həyatını özündə ehtiva edir".

Sonra şəhid Əlmirzə Ağamirzə oğlu Mirzəyevin anası Nərgiz Əlimirzəyeva danışdı.

Neftçala rayon şəhidi Şahlar Məmmədovun anası Əzizə Məmmədova bildirdi ki, oğlu Şuşada şəhid olub: "Torpaqları azad edib qaçqınları evlərinə qaytardılar, amma öz yuvaları boş qaldı. Mən qələbə sevinci yaşayanda üstümə oğlumun tabutu gəldi..."

Şəhid Anar Vəlizadənin anası Zemfira xanım çıxışında bildirdi ki, şəhid unudulanda ölür, amma biz öz şəhidlərimizi unutmalı deyilik: "Oğullarımızın uğrunda şəhid olduğu torpaqlarda qalxan bayraqlar bir daha enməsin" .

Polkovnik-leytenant Rəşad Hüseynovun atası Rəhim Hüseynov danışdı, oğlunun xatirəsini əziz tutanlara təşəkkür etdi.

Tədbirdə daha sonra Respublika Xatirə Kitabı Redaksiyasının "Vətən daşı... və ya 44 günün dastanı" layihəsi əsasında Məhəbbət Quliyevə həsr olunmuş sənədli film təqdim edildi.

Filmin layihə müəllifi Nəzakət Məmmədova, rejissoru isə Vüsal Nurudur.

Bildirək ki, bu kitablarda Vətən uğrunda şəhid olmuş şəxslər haqqında ensiklopedik məlumatlar yer alıb, onların adları və xatirələri əbədiləşdirilib.

Qeyd edək ki, Biləsuvar rayonu ilə yanaşı Salyan, Neftçala, Hacıqabul rayonları və Şirvan şəhərindən olan şəhid ailələri də bu tədbirdə iştirak ediblər. Sonda şəhid ailələrinə "44 gün-Tarixi zəfər"in cildləri təqdim edildi.

Tədbirdən hazırladığımız geniş yazı ilə növbəti sayımızda tanış ola bilərsiniz.

***İradə SARIYEVA***
***Biləsuvar***